Zəfərə aparan yol haradan başlayır...

ZƏFƏRƏ APARAN YOL

Dövlət başçısı yeniyetmə və cavanlıq illərindəki kimi indi də dostpərvər, ürəyiaçıq və qayğıkeş insan olaraq qalıb, həm də çox təvazökar insandır. Eyni zamanda o, geniş dünyagörüşü olan və böyük yumor hissinə malik insandır. İlham Əliyev yeniyetməliyindəki, cavanlığındakı müsbət cəhətləri bu günə qədər saxlaya bilib. O, siyasətçi olandan sonra başqa müsbət keyfiyyətləri də üzə çıxdı. Müdriklik, uzaqgörənlik, liderlik və digər siyasətçilərə məxsus olan keyfiyyətləri.

– Tanınmışların, rəhbər şəxslərin övladlarından başqa kimlər sizinlə bir yerdə oxuyub?

– Bizim məktəbdə müxtəlif şəxslərin övladları oxuyurdu. Həm vəzifəli, həm də sadə insanların uşaqları təhsil alırdı. Amma heç kəs özünü o birilərdən ayırmırdı və biz hamımız bir ailə kimi davranırdıq.

– 10 illik məktəb illəri İlham Əliyevin zövqləri haqqında da sizə müəyyən informasiyalar verib. Prezidentin musiqi zövqü necə idi?

– Onun musiqi zövqü əla idi. Həm klassik, həm də estrada musiqisinə qulaq asırdı. Cənab Prezidentin ad günündə onun pianosunu da gördük. O, pianoda da ifa edə bilirdi. Bir sözlə, İlham Əliyev hərtərəfli bir insandır. Hesab edirəm ki, bizim bəxtimiz gətirib ki, onun kimi Prezidentimiz var.

– Onun, təbii ki, mütaliəsi də var idi. Bu olmasaydı, siz dediyiniz kimi, müəllimlərlə polemikaya girməzdi. Ancaq mənə maraqlıdır: mütalia dairəsini hansı kateqoriyaya bölmək olardı? Siyasət, tarix, yoxsa ədəbiyyat?

– Tarix və ədəbiyyat, biologiya, ümumiyyətlə, humanitar sahələrlə maraqlanırdı. Coğrafiyanı da çox sevərdi.

14 mart 2016-cı il

İlham Əliyev atası ilə SSRİ-nin kosmonavtları və tanınmış incəsənət adamları arasında (1976)

34

MİSİR MƏRDANOV

tez – 5 yaşımda qoymuşdular. Eyni zamanda mən “ailə imtahanları” da verirdim. Özü də semestrdə bir dəfə yox, daim. Onları Heydər Əliyev keçirirdi. Mən evdə qonaqların qəbulunda iştirak edirdim. Atamın süfrə başındakı yüksək dərəcəli söhbətlərinə yiyələnirdim. Hər şeydən vacibi isə bir çox həqiqətləri mənimsəyirdim. Məsələn, belə bir həqiqəti: hər insanın dəyəri onun mənəvi zənginliyi və biliyi ilə ölçülür.

Evdə siyasətin ilk dərslərini də öyrənirdim. Onlar gələcəkdə mənə necə də lazım gəldi! Xülasə, onda aramızda sadəcə olaraq “ata-oğul” münasibətləri deyil, “müəllim-şagird”, ondan da əvvəl “sələf-xələf” münasibətləri yaranmışdı. Bəlkə də mən o dövrü çox təntənəli – nostalji tonda yada salıram. Ancaq atama pərəstişim, ona olan minnətdarlığım o qədər böyükdür ki, onun haqqında yazanda sakit və laqeyd qala bilmirəm.

Təkrar edirəm: mən öz universitet illərimi yalnız məktəbdə və MDBMİ-də, ətrafdakılarla ünsiyyətdə deyil, həm də evdə, ailədə keçmişəm.

***

1987-ci ildə çox ağır dövr başladı. Heydər Əliyevi Siyasi Büro üzvlüyündən azad etdilər. Onun doğmalarını isə təqib etməyə başladılar. Detallara varmaq və kimlərləsə haqq-hesab çürütmək istəmirəm. Bizə qarşı alçaqlıq edənlərin alçaqlığı qoy onların öz vicdanına yazılsın. Ancaq onu demək istəyirəm ki, mən aldığım biliklərə görə minnətdarlıq duyduğum MDBMİ-dən getməli oldum və bizneslə məşğul olmağa başladım. Mən ticarət və istehsalat firmalarına rəhbərlik elədim. Bu da yaxşı məktəb idi – özüm üçün çoxlu yeni və faydalı şey öyrəndim. Mənim Moskvada paltar fabrikim vardı. Sonra treydinqə əl atdım. Hər şey uğurla

“Mən semestrdə bir dəfə yox, daim Heydər Əliyevə “ailə imtahanları” verirdim”

47

“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin”, – sözləri ilə Ulu Öndərin başladığı quruculuq, inkişaf, beynəlxalq birliyə açılma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi qatlarını əhatə edən həmrəylik kursu onun siyasi varisi İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ulu Öndərin sovet dövründə Azərbaycanı ölkə kimi, XX əsrin 90-cı illərində isə respublikamızı müstəqil dövlət kimi xilas etməsi prosesi Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla və qətiyyətlə həyata keçirilmiş, işğalçı Ermənistan üzərində qələbə qazanaraq sübut etmişdir ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, o həm də regionun aparıcı dövləti və qalib lideri olmaq qüdrətindədir.

Ulu Öndər vaxtilə zəngin təcrübəsini addım-addım öz siyasi varisinə ötürüb, ona müxtəlif vəziyyətlərdə necə davranmaq lazım gəldiyini öyrədib. Bunun nəticəsidir ki, Azərbaycanın XXI əsrdə yeni lideri olan İlham Əliyev öz dövrünü, zamanı qabaqlayan, möhkəm xarakterə malik kamil şəxsiyyət kimi yetişib və bu, Prezidentimizin istər daxili, istərsə də xarici siyasətdə atdığı hər bir addımda özünü göstərir.

“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”

205

ZƏFƏRƏ APARAN YOL

Eynən 44 günlük müharibədə gördüyümüz kimi hər günü tarixə yazılan 18 illik prezidentlik dövrü

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyatı uğur səhifələridir. Moskvada təhsil illəri, çətin neft danışıqları, hər ili, hər ayı, 44 günlük müharibədə gördüyümüz kimi hər günü tarixə yazılan 18 illik prezidentlik dövrü...

Bunu MDBMİ-dən gələn bir xarizma, fitri liderlik istedadı da hesab etmək olar. Nə qədər yüksək ali məktəblər olur olsun, nəzərə almaq lazımdır ki, o, Heydər Əliyev məktəbi keçib, əsas siyasi-mənəvi baxışları bu məktəbdə formalaşıb. İdarəetməni dahi siyasi xadim, müasir müstəqil dövlətimizin banisi, xalqımızın Ulu öndəri Heydər Əliyevdən öyrənib.

78

"O, sinfin gözü idi, hər şeyi o dəqiqə başa düşən, enerjili, qaynar təbiətli, ünsiyyətcil, həm də atasının yüksək mənsəbindən sui-istifadə edən bəzi uşaqlardan fərqli olaraq sadə və mehriban. Yaşıdlarından hündür, yaraşıqlı, sinifdə hamı ilə dostluq edən, həssas, eyni zamanda da bütün tapşırıqları məsuliyyətlə yerinə yetirən yaxşı şagird təsəvvür edə bilirsinizmi? Bax, bu, İlham Əliyev idi".

"Zəfərə aparan yol" kitabının* birinci fəslində verilən 6 nömrəli məktəbin müəllimi Emma Kazımovanın yazısı məhz bu sözlərlə başlayır. Bir müəllimin sevimli şagirdi haqqında fikirləri, sadə, səmimi sözlərin bir-biri ilə qovuşub yaratdığı harmoniya istər-istəməz insanı uzaq uşaqlıq illərinə çəkib aparır, oxuduğun məktəbi, sənə dərs deyən müəllimləri xatırlayırsan. Ağlından, xəyalından keçənlər, yada düşən xatirələr, nostalji hisslər həyəcan üstünə həyəcan gətirir. Hiss edirsən ki, bu nəfis tərtibatlı kitabın hər səhifəsi oxucunu bax, elə bu ruhda kökləyəcək, ona sözün həqiqi mənasında, xoş duyğular yaşadacaq. Hörmətli oxucum, 60 illik şərəfli bir ömrün pillələri ilə bizimlə yanaşı addımlamaq, indiyədək haqqında bilmədiyimiz bəzi mətləblərdən agah olmaq, bir Vətən övladının, təəssübkeşinin uğurlarından qürur duymaq istəyirsinizsə, gəlin, "Zəfərə aparan yol"u tələsmədən birgə vərəqləyək!..

Kitab Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyinə həsr edilib. Oxuculara təqdim olunan kitabda digər amillərlə yanaşı, həm də ölkə başçısı İlham Əliyevin bir şəxsiyyət kimi formalaşmasında, dünyanın nüfuzlu siyasi liderlərindən birinə çevrilməsində əhəmiyyətli rolu olan məktəblərdən və həmin məktəbləri bir qədər də zənginləşdirərək yaratdığı öz məktəbindən danışılır. **Kitabın müəllifi Misir Mərdanovun** "Ön söz"də qeyd etdiyi kimi: *"...Azərbaycan tarixinin son 60 ilini öyrənmək istəyən, təhlil və tədqiq edən insanlar və bütün xalqımız üçün bu kitab böyük maraq kəsb edəcəkdir. Kitab uzunmüddətli tədqiqatların, gərgin əməyin, arxivlərdə və kitabxanalarda aparılan araşdırmaların, şahidlərlə görüşlərin, çoxsaylı materialların müqayisələrinin, qısası, müxtəlif mənbələrdən toplanan məlumatlar nəticəsində ərsəyə gəlmişdir...".*

Kitabın qəhrəmanı olan möhtərəm Prezidentimiz İlham Əliyevin həyat və fəaliyyəti mərhələlərlə *beş fəsildə* əhatə olunub. Onun uşaqlıq, yeniyetməlik, gənclik və orta yaş dövrünü, sonrakı mərhələləri əks etdirən fəsillərin hər biri maraqlı faktlarla zəngindir. Nadir fotoşəkillər xoş bir mənzərə yaradır. Bütün bunların fonunda isə İlham Əliyevin bitkin bir obrazı canlanır.

Birinci fəsildə onun 1967-1977-ci illərdə təhsil aldığı Bakı şəhərindəki 6 nömrəli orta təhsil məktəbi haqda danışılır. Məktəblə tanış etmək məqsədilə 5



yaşı təzə tamam olmuş İlhamı məktəbə gətirən valideynləri onu uşaqlardan, sinifdən ayıra bilmirlər. Beləliklə, o, özündən yaşca böyük uşaqlarla bir sinifdə oxumalı olur. Həyat elə gətirir ki, o, sonralar ali məktəbdə də, ailə quranda da yaşıdlarından gənc, Azərbaycanın Baş naziri, Prezident olanda da özündən əvvəlkilərdən yaşca ən cavanı olur. Uca Tanrı taleyini elə yazır ki, ona qədər müharibələr aparmış bütün sərkərdələrdən daha tez, cəmi 44 gün ərzində düşməni diz çökdürüb zəfər qazanır...

Hələlik isə, o, doğma məktəbinin fərqli şagirdidir: *"Mənim üçün 6 nömrəli məktəb doğma, əziz məktəbdir. Bütün bu ətraf ərazilər mənim üçün doğmadır. Mənim uşaqlıq yaşlarım elə bu məhəllədə keçibdir. Hər bir insan kimi mənim üçün də məktəb illəri unudulmaz illərdir. Burada, bu məktəbdə mənə verdikləri biliklərə görə müəllimlərimə minnətdaram və o xatirələri həmişə ürəyimdə saxlayıram".*

Bu fəsildə onun müəllimlərinin, sinif yoldaşlarının maraqlı xatirələri, məktəb illərinin unudulmaz məqamları qələmə alınır, tədricən özündən yaşca böyük uşaqların liderinə çevrilən bu istedadlı gəncin məktəb həyatı vərəq-vərəq səhifələnir, İlham Əliyevin Prezident seçildikdən sonra məktəbə səfərləri geniş işıqlandırılır.

İkinci fəsil dünyanın tanınmış ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuduğu və ondan sonrakı sınaq illərini - 1977-ci ildən 1992-ci ilə qədərki dövrü əhatə dir. Həmin illərdə 16 yaşı tamam olmamış gəncin alışmadığı Moskva mühitində, yataqxana həyatında keçirdiyi tələbəlik illəri haqda onun tələbə yoldaşlarının, müəllimlərinin, MDBMİ-nin əməkdaşlarının müxtəlif səpkili xatirələri verilir. Bu ali məktəbə müttəfiq respublikalardan birinin rəhbərinin oğlu kimi gələn İham Əliyev oranı SSRİ-nin rəhbərlərindən birinin oğlu kimi bitirir, ancaq heç kəs bu müdrik, təşkilatçı, ünsiyyətcil oğlanın kiminsə övladı olduğunu hiss etmir. Bax, budur, sadəlik. Ali təhsilini başa vurub həmin ali məktəbdə müəllim kimi fəaliyyətə başlayan, tezliklə dissertasiya müdafiə edib elmi dərəcə alan bu gəncin həyatında baş verən çətinlikləri, Mixail Qorbaçovun paxıllıq və qısqanclıq kimi cılız hisslərinin və digər siyasi səbəblər nəticəsində Moskvadakı vəzifələrindən kənarlaşdırılmasını, Heydər Əliyevin oğlu olduğuna görə təqiblərə məruz qalmasını da heç kəs bilmir. Bütün bunlar isə məhz ikinci fəsildə qələmə alınıb.

> Mənim üçün 6 nömrəli məktəb doğma, əziz məktəbdir. Bütün bu ətraf ərazilər mənim üçün doğmadır. Mənim uşaqlıq yaşlarım elə bu məhəllədə keçibdir. Hər bir insan kimi mənim üçün də məktəb illəri unudulmaz illərdir. Burada, bu məktəbdə mənə verdikləri biliklərə görə müəllimlərimə minnətdaram və o xatirələri həmişə ürəyimdə saxlayıram.

Oxucu *üçüncü fəsildə* qəhrəmanını doğmalarının əhatəsində görüb, həyatının bəzi məqamları ilə tanış olur. "Ailə məktəbi" adlandırılan bu fəsildə Prezidentin həyat yoldaşı, sədaqətli dostu, etibarlı silahdaşı Mehriban xanım Əliyeva, onun şəxsiyyət kimi formalaşmasında böyük rol oynayan anası Zərifə xanım haqqında söhbət açılır. Oxuduqca ailənin bütün yükünü çiyinlərinə götürən Zərifə xanımın böyüklüyünün bir daha şahidi olursan. Məktəbin valideyn iclaslarında, sinif yoldaşları ilə keçirilən tədbirlərdə bu böyük alim və həkim, ictimai xadim və nüfuzlu ocağın xanımı səmimiyyətlə iştirak etmiş, övladının düzgün tərbiyələnməsi üçün imtiyazlarını heç zaman nəzərə çatdırmamışdır.

Heydər Əliyev məktəbi... Bu məktəbi çoxları keçib ondan nəsə əxz etməyə çalışıb, hətta Rusiyanın ən ucqar vilayətlərində, Belarusda, Ukraynada, Gürcüstanda Heydər Əliyevi qeyri-adi fenomenal bir şəxsiyyət kimi tanımış, bu məktəbdən faydalanmışlar. Bu universitetin ən istedadlı, ən layiqli tələbəsi isə, şübhəsiz ki, cənab İlham Əliyevdir. Kitabın *dördüncü fəslində* ulu öndərin yaratdığı böyük məktəbdən danışılır. Müəllif bu məktəbin möhtəşəmliyini nəzərə çarpdırmaq üçün müxtəlif mənbələrdən əldə etdiyi məlumatlardan geniş istifadə edir.

Heydər Əliyev məktəbinin ən qüdrətli məzunu olan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin xalqımıza yaşatdığı sevincdən, qürurdan söz açan müəllif yazır: "Bu qələbə də indiyədək iqtisadiyyat, siyasət, mədəniyyət, elm, təhsil, idman, səhiyyə və digər sahələrdə qazanılmış uğurların əsası olan Heydər Əliyev məktəbinin daha bir qələbəsi kimi tarixə yazıldı. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" - sözləri ilə ulu öndərin başladığı quruculuq, inkişaf, beynəlxalq birliyə açılma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi qatlarını əhatə edən həmrəylik kursu onun siyasi varisi İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Prezident İlham Əliyev Ermənistan üzərində qələbə qazanaraq sübut etmişdir ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, həm də regionun aparıcı dövləti və qalib ölkəsi olmaq qüdrətindədir.

Kitabın *beşinci fəslində* İlham Əliyevin öz məktəbindən geniş bəhs edilir. Burada Prezidentliyə qədərki dövrdə və ölkə başçısı olduğu müddətdə gördüyü titanik işlər mərhələ-mərhələ şərh olunur. Onun çoxşaxəli fəaliyyətindən doğan çoxsahəli məktəbinin uğurları açıqlanır, bu nadir şəxsiyyət oxuculara böyük ehtiramla təqdim edilir.

"Son söz əvəzi"... Müəllif son ştrixləri vurarkən orijinal bir variant seçib ki, bu da oxucuda maraq doğurur: "O, Prezident olduğu müddətdə nə etmişdir?" - sualını 60 cavab əsasında açıqlamağa çalışır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövlət quruculuğu sahəsində mühüm uğurlar əldə edə bilmişdir...". Bu uğurların ön sırasında isə tarixi zəfərimiz dayanır.

44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin, yeni bir dövrün başlanğıcı oldu. İndi qarşıda böyük quruculuq işləri dayanır. Prezidentin dediyi kimi: *"Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq".*

Hər başlanğıcın sonu, hər sonun bir başlanğıcı var. Həyəcanla, maraqla səhifə-səhifə vərəqləyib "Zəfər yolu"nun sonuna gəldik. Bu ömür kitabının baş qəhrəmanının adi bir parta arxasından prezidentlik kürsüsünə uzanan həyat yolunu izlədik. Ən mötəbər kürsülərdə milli mənafe naminə etdiyi çıxışları, hər kəsə "öz dilində" verdiyi kəsərli cavabları, müsahibələri, xatirələri, unudulmaz görüşləri xatırlayıb yaddaşlarımızı təzələdik. Əmin olduq ki, gələcək nəsillərə öz həyatı, intellekti, cəsarəti, vətəndaşlığı ilə nümunə, məktəb olmaq amalı ilə Azərbaycan üçün çalışan, vuruşan Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanın milli maraqlarını hər zaman uca tutacaq.

**Zümrüd QURBANQIZI,
"Respublika".**

ZƏFƏRƏ APARAN YOL

"O zamanlar bizə düşmən obrazı kimi təqdim olunan Türkiyənin qardaş olduğunu İlham Əliyevin söhbətlərindən bilmişdim..."

cəyinə, İlham Əliyevin prezident kimi xarici səfərlərinə ilk dəfə oradan başlayacağına on illər qalırdı. Sistematik şəkildə aparılan əks-təbliğat qardaş xalqı bizim gözümüzdən salmış, təsəvvürümüzdə Türkiyədən düşmən obrazı yarada bilmişdi. Onun adı çəkiləndə, əksəriyyətimiz kapitalizm sisteminin, NATO hərbi blokunun təhlükəli bir üzvünü xəyalımıza gətirir, Bursa həbsxanasını, şair Nazim Hikmətə zülmlər vermiş bir ölkəni düşünürdük. Əslində belə olmadığını mən ilk dəfə İlham Əliyevdən eşitmişəm.

Bir dəfə söhbət zamanı qonşu İran və Türkiyə barədə soruşdum. Bu iki dövləti xarakterizə etməmişdən əvvəl birbaşa dedi ki, biz də türkük. Qan birliyimizdən danışdı, Türkiyənin müasir yazıçılarından, şairlərindən söz açıb, onların əsərlərindən nümunələr söylədi. Qazax, qırğız, özbək, türkmən, xakas və qaqauzların da bizim kimi türksoylu olduğunu bildirdi. İran və Rusiya arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsini o dövrün kitablarında yazılan kimi izah etmədi, milyonlarla soydaşımızdan ayrı düşməyimizin amansız səbəbi adlandırdı. Bəxtiyar Vahabzadənin o vaxt çapı qadağan olunmuş “Gülüstan” poemasından söz açdı.

İnstitut təkcə elm ocağı, bilik məbədi deyil. Orada baş verənlər təhsil alanların xasiyyətini də aşkara çıxardır. Bizimlə Qriqori Maşkov adlı bir tələbə oxuyurdu, təkəbbürlü və millətçi idi.

62

ZƏFƏRƏ APARAN YOL

məqsədilə “2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” hazırlanmışdır.

Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Təhsili hər zaman prioritet hesab edən Azərbaycan Respublikası Prezidentinin 2012-ci ildə təsdiq etdiyi “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, 2013-cü ildə imzaladığı “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, 2021-ci il tarixli “Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında” Sərəncamı və digər sənədlər çox böyük əhəmiyyət daşıyır. Bu rəsmi sənədlərlə cənab Prezident dayanıqlı və rəqabətqabiliyyətli inkişafı təmin edən, insan kapitalının inkişafını daim diqqətdə saxlayan, insan resurslarının yetişdirilməsi və idarə edilməsini gerçəkləşdirən müasir təhsil sisteminin başlıca məqsədlərini müəyyənləşdirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə ali təhsilin inkişafı əsas prioritetə çevrilmiş, insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Məhz bu dövrdə ali təhsil müəssisələrinin şəbəkəsi daha da inkişaf etmiş, onların sayı 2003-cü ildəki 46-dan hazırda 51-ə, təhsilalanların sayı isə 120 mindən 180 minə yaxınlaşmışdır. Son illərdə bir sıra ali təhsil müəssisələri üçün ən müasir kampuslar yaradılmış, bütün ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazası əhəmiyyətli şəkildə yenilənmişdir.

Azərbaycanda ən müasir tələblərə cavab verən və milli brendə çevrilmiş ADA Universiteti təsis edilmiş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov

Bu gün dünyada Azərbaycana inanırlar, etibar edirlər və Azərbaycan dünyanın mədəniyyət mərkəzinə çevrilmişdir (2012)

270

MİSİR MƏRDANOV

ТОРКУНОВ | 1980–1990

ИЛЬХАМ АЛИЕВ: «БЫТЬ РЕКТОРОМ МГИМО — ВЕЛИКАЯ МИССИЯ»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun “MGIMO Journal”ına müsahibə verib (2020)

özündə də – müstəqil dövlətin prezidenti olan zaman da bizi unutmur. O, sonuncu dəfə MDBMİ-ni ziyarət edən zaman Raisa Vasilyevanı çağırmağı xahiş etmişdi. Yəni, insan əvvəlki kimi qalıb. Bizim mürəkkəb dövrümüzdə, bu, çox nadir hadisədir – insanları özünə cəlb etmək və insan təvazökarlığına malik olmaq. Ona can sağlığı, xoşbəxtlik və kifayət qədər çətin professional fəaliyyətində uğurlar arzulayıram. Allah ona qüvvət versin! Bu insan – tarixdir. Biz onu həmişə xatırlayırıq və hörmət edirik. O, özü haqqında MDBMİ-də yaxşı xatirələr qoyub”

Tələbə dostlarından biri, siyasi elmlər doktoru, “Obozrevatel Observer” elmi-analitik jurnalının baş redaktoru Vladimir Ştol: “Biz İlhamla, əgər belə demək mümkündürsə, çox adi şəraitdə – 1977-ci ilin sentyabrında Beynəlxalq münasibətlər fakültəsinin birinci ilinə həsr edilmiş iclasında tanış olmuşuq. O, ümumi mühitdə fərqlənmirdi, hamı kimi idi, yəqin ki, məhz bu səbəbdən sonradan onunla dostlaşdıq. Hərçənd ki, qeyd etmək yerinə düşər ki, bizdə valideynləri yüksək vəzifə sahibi olan bir çox tələbələr oxuyurdu, lakin heç kim bununla öyünməyib. Bir çox ortaq maraqlarımız olub – birlikdə sosial və idman tədbirlərində iştirak edir, şənliklərin proqramlarını hazırlayır, sovet və xarici pop musiqilərini dinləyirdik.

Mən hətta Azərbaycan dilini öyrənməyə başladım və bəzi ifadələri hələ də xatırlayıram. Bir vaxtda aspiranturaya daxil olduq və daha sonra İ.Əliyev Avropa və Amerika ölkələri tarixi, mən isə Beynəlxalq münasibətlər və SSRİ-nin xarici siyasətinin tarixi kafedralarında dərs deyirdik... Parlaq hekayələrimiz çox olub, amma onlar əsasən şəxsidir və mən bu barədə danışa bilmərəm. Elə bir dövr olub ki, İlhama asan olmayıb, atasını bütün vəzifələrdən kənarlaşdırmışdılar, lakin o, heç vaxt şikayət etməyib. Azərbaycan Prezidenti olandan sonra da, o, heç

71

ZƏFƏRƏ APARAN YOL

“Rektor Anatoli Torkunov mənə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Fəxri doktoru dərəcəsi verilməsi barədə qərarı oxudu” (2004)

tanış çöhrə gördüm! Əfsus ki, çoxları qocalmışdı, heç mən özüm də gəncləşməmişəm. Ali məktəbin rektoru Anatoli Torkunov mənə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru dərəcəsi verilməsi barədə qərarı elan etdi. Mən atamın yolu ilə getdiyim üçün fəxr edirəm: Heydər Əliyev də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru idi. Bu ad görkəmli siyasi və ictimai xadimlərə verilir.

Mənə diplom, medal və mantiya təqdim etdilər. Mən onu dərhal geyindim. Bunlardan başqa, mənə bir mücrü verildi, onun içində qəlbimə yaxın olan yadigarlar – zaçot kitabçası və attestat vardı; kitabçada ancaq “əla” və “yaxşı” qiymətlər, attestatda isə ancaq “əla” qiymətlər vardı. Tələbə biletini isə mənə vermədilər, rektor onu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun muzeyində saxlamağı qərara aldı. O, zarafatla dedi ki, mənə təqdim etdiyi diplomun praktiki dəyəri var, 100 il sonra mən dövlət işlərindən ayrılanda öz professor karyeramı yenidən başlamaq üçün məni institutda gözləyirlər. Etiraf edirəm ki, həmin dəqiqələrdə mən çox həyəcanlandım. Axı Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu mənim bioqrafiyamda çox mühüm yer tutur. Mən onun divarları arasında oxudum, işlədim və bilik əldə etdim, ən əsası isə sadiq, vəfalı dostlar qazandım. Bunlar mənim həyatımın ən gözəl illəri, tələbəlik və gənclik illəri idi. Bunların ən gözəl illər olduğunu dərk edəndə onlar artıq arxada qalmış olur. O vaxt adama elə gəlirdi ki, həmişə belə olacaq...Təbii ki, mən Bakı məktəbindən buraya, tamamilə başqa bir mühitə düşəndə dərhal anladım ki, seçim çox düzgündür.

Mən o dövr üçün həsrət çəkirəm. Nə gözəl dövr idi. Mən 15 yaşımdan etibarən Moskvada oxuyurdum. Yeri gəlmişkən, məni məktəbə

46

*** Misir Mərdanov. “Zəfərə aparan yol”. Bakı, “Təhsil”, 2021, 288 səh.**